# Molla Sədra

və

# Məhdəviyyət

Bəhruz Camal



## *Müqəddimə*

Bu məqalədə Molla Sədranın məhdəviyyətlə bağlı ümumi görüşlərinə işarə edəcək, ondan öncəki, həmçinin müasiri olmuş filosof və mütəkəllimlərin nəzərləri ilə müqayisə edəcəyik.

İmam Mehdinin (ə.f) varlığı və axırəz-zamandakı zühuruna etiqadın kökü Peyğəmbər (ə) və imamlardan (ə) nəql olunmuş hədislərə dayanır. Lakin İslam elmləri tarixinə ümumi baxış keçirdikdə məhdəviyyətin təkcə mühəddislərin deyil, mütəkəllimlərin, filosofların və ariflərin də öz əsərlərində toxunduqları, araşdırıb təhlil etdikləri mövzulardan biri olduğu məlum olur. Onların bu barədə təhlillərini, araşdırmalarını və nəzərlərini gözdən keçirdikdə məlum olur ki, bu nəzərlər hər bir zamanda imamın varlığının zəruriliyi məsələsində müştərəkdirlər. Onların məhdəviyyət mövzusunun araşdırılması və müdafiəsində istifadə etdiyi arqumentlər də məhz elə bu müştərək nəzərlərə əsaslanır. Ona görə də İslam filosoflarının məhdəviyyət barədə baxışlarını araşdırmazdan öncə onların hər bir zamanda imamın varlığını zəruri hesab edən arqumentlərini araşdırmaq lazımdır.

İslam filosoflarının (Farabidən tutmuş Molla Sədraya qədər) əsərlərinə baxış keçirdikdə görürük ki, məhdəviyyət bütün İslam mütəfəkkirlərinin önəm verdiyi mövzulardan biri olmuşdur.

Bu yazıda ilk olaraq Molla Sədranın nübuvvət və vəhyin qəbuluna, həmçinin fəlsəfi məktəbindəki imamət mövzusuna işarə etdikdən sonra onun hər bir dövrdə imamın zəruri olması məsələsi barəsindəki arqumentlərini bəyan edəcəyik. Bundan başqa Molla Sədranın on ikinci imamın varlığı və qeybəçəkilməsi barədə nəzərini bəyan edəcəyik. Sonda Molla Sədranın görüşlərini ümumi olaraq Farabi, İbn Sina, Şeyx İşraq, Mirdamad kimi filosofların nəzərləri ilə müqayisə edib Şeyx Müfid, Seyid Mürtəza, Xacə Nəsirəddin Tusi kimi imamiyyə mütəkəllimlərinin də məhdəviyyət mövzusu barəsindəki mövqelərinə işarə edəcəyik.

## *Nübuvvət nəzəriyyəsi*

Molla Sədra özünün ən mühüm kitabı sayılan və demək olar ki, bütün fəlsəfi fikirlərini özündə ehtiva edən "Əsfar" adlı kitabında nübuvvət mövzusuna ayrıca bir fəsil ayırmamışdır. Lakin digər fəlsəfi əsərləri olan "Əş-Şəvahidür-Rübubiyyə", "Əl-Məbdə vəl-məad", "Əl-Məzahirul-İlahiyyə", "Məfatihül-ğeyb" və "Üsuli-Kafi"yə yazdığı şərhində nübuvvət və vilayətdən daha ətraflı və geniş söhbət açmışdır.

Molla Sədra fəlsəfəsindəki nübuvvət mövzusu imamətlə birbaşa və sıx əlaqəlidir. Bu kiçik yazıda onun nübuvvət barədə fikirlərinin hamısını qeyd etmək imkanımız məhduddur. Ona görə də nübuvvət barədəki fikirləri arasından yalnız onun fəlsəfi məktəbindəki imamət nəzəriyyəsi və məhdəviyyət mövzusunun aydınlaşdırılmasında yardımçı ola biləcək nəzərlərinə işarə edəcəyik.

### *a) Nəbinin üçlü xüsusiyyəti;*

Nəbinin birinci xüsusiyyəti onun vasitəsiz və əzəmətli elmə malik olmasıdır. Molla Sədraya görə insanların nəfsi elm kəsb etmək baxımından dərəcələrə malikdir. Bəziləri elə zəif və qaranlıq nəfsə malikdirlər ki, hətta təlim vasitəsilə belə nəfsləri maariflənmir. Lakin elə güclü nəfsə malik olan fərdlər vardır ki, qısa zaman kəsiyində çoxlu maarif və müxtəlif elmləri öyrənməyə qadirdirlər. Kamal yolundakı bu əql qüvvəsinin ən son dərəcəsində peyğəmbərlərin müqəddəs nəfsləridir. Onların müqəddəs nəfsi qısa zaman ərzində bəşər tərəfindən təlim almadan bəşəriyyətin də yetişə biləcəyi mümkün olan bütün maarif və elmləri özündə ehtiva edir. O, peyğəmbərlərin bu xüsusiyyətlərini bəyan edərkən onların dərkedici (idrak edən) nəfslərinin xalislik və paklıq cəhətindən "universal ağıl" və ya həmin "aktiv ağıl (intellekt)" hesab olunan əzəmətli ruha birləşməsinə və rabitəsinə işarə edir. İlahi maarif bu "aktiv ağıla" birləşmə vastəsilə nəbilərin müqəddəs nəfslərinə ötürülür. Molla Sədraya görə həm nəbilər, həm də övliyalar bu məqama yetişə bilər.

Nəbilərin ikinci xüsusiyyəti onların xəyal qüvvəsinin şiddət və qüvvət mərtəbəsinə yetişməsidir. Bu xüsusiyyət vasitəsilə onlar ayıq olduqları halda belə, qeyb və xəyal aləmini batini gözlə görə bilərlər. Bu mərtəbədə nəbilərin xəyal qüvvəsi bir növ aktuallaşır və gerçəyə çevrilir ki, vəhy mələyinin siması müşahidə edə (yəni mələyin timsalı gözləri önündə canlanır) və Allah dərgahından gətirdiyi kəlamı eşidə bilirlər. Molla Sədraya görə bu məqam ancaq peyğəmbərlərə aiddir. Onların canişinləri isə bu məqama yetişə bilməz.

Peyğəmbərlərin üçüncü xüsusiyyəti bundan ibarətdir ki, onların nəfsləri ilkin materiyaya (hər şeyin əslinə, surətinə) təsir edə biləcək qədər istiqamətləndirici qüvvələr və əməl baxımından kamala yetişməsidir. Bu mənada ki, həmin şeyin əslini (surətini) aradan qaldırıb başqa bir surətlə əvəz edir. Bu minvalla peyğəmbərlərin xəstələrə şəfa vermək, ölüləri diriltmək və başqa xariqüladə işləri hasil olur. Molla Sədra bu rəyinə səbəb kimi asimani nəfslərin maddi aləmin əslinə (surətinə) təsir edərək müxtəlif surətlər vermə qabiliyyətinə malik olmasını qeyd edir. Deməli, insan nəfsi istiqamətləndirici və əməl qüvvələrini kamal mərhələsinə çatdırarsa, asimani nəfslərə bənzəyəcək və kainat aləmində müəyyən müdaxilələrə malik olacaq.

Molla Sədra digər xüsusiyyətlərdə olduğu kimi, bu xüsusiyyətin də şiddətli və zəif olmaqla fərdlərə görə fərqli olduğuna inanır. Nəbilər və övliyaların ilahi nəfsləri bu xüsusiyyətə malik olmasına baxmayaraq, zəif nəfsə malik olan insanlar da vardır ki, onların təsiri öz cisimlərindən (bədənlərindən) kənara çıxa bilmir. Onlar yalnız öz bədənlərinin əməl qüvvələrinə təsir edib onu müti etmək qüdrətinə malikdirlər.[1]

Bu yerdə qeyd olunması zəruri olan məsələ bundan ibarətdir ki, Molla Sədra bu üç xüsusiyyətin özünü belə bir növ möcüzə və xariqüladəlik hesab edir. Çünki nəbilərdən qeyriləri bu mərhələyə yetişə bilmir. Elə bunun özü də onların doğruluğunu və Allah tərəfindən seçilmələrini təsdiqləyən bir nişanədir. Lakin Molla Sədraya görə nəbilərin əql və təfəkkürdəki kamilliyi möcüzələrin ən dəyərlisidir. Nəzər sahibləri və

---

[1] Şəvahidür-Rübubiyyə fil mənahicus-sulikiyyə, səh/399-432, təhqiq və müqəddimə Seyid Mustafa Mühəqiq Damad, Əl-Məbdə vəl-məad, c/2, səh/802-806, təhqiq və müqəddimə, Muhəmməd Zəbihi və Cəfərşah Nəzəri, Üsuli Kafinin şərhi (Fəzlül elm və Hüccət kitabları), səh/440-443, Sədrül Mütəəllihin, Təfsirül Quranil-Kərim, c/6, səh/277-280

alimlərin xüsusi təbəqəsi nəbilərin bu xüsusiyyətini möcüzə və kəramətlərin ən üstünü hesab edirlər.[2]

Göründüyü kimi, Molla Sədra nəbilərin üçlü xüsusiyyətindən yalnız ikincisini nəbilərə aid edir. Bu da onun imamət və nübuvvət mövzularında əsaslı fərqin olmamasına inanmasının göstəricisidir. Bundan başqa o, imamlar və övliyalar üçün ilham adlandırılan vəhyin ən aşağı dərəcəsinin də mümkünlüyünə inanır.

Molla Sədra "Üsuli Kafi"nin şərhində nəbi və imamın digər xüsusiyyətlərinə də işarə edir. Bu xüsusiyyətlər hər bir dövrdə imamın varlığının zərurəti mövzusunun isbatında əhəmiyyətli olduğundan biz bu xüsusiyyətlər barədə ***"imamət nəzəriyyəsi"*** başlığı altındakı söhbət açacağıq.

***b) Peyğəmbərlərin (nəbilərin) göndərilməsinin vacibliyi;***

Molla Sədra peyğəmbərliyin vacibliyi barədə arqumentlərini "Şəvahidür-Rububiyyə"[3], "Əl-Məbdə vəl məad"[4], "Məfatihül-ğeyb"[5] və "Üsuli-Kafi"nin şərhində yazdığı kitablarda qeyd etmişdir. Bu arqumentlər müəyyən mənada vahid məzmuna malik olsa da, onların bəyanı və müqəddimələri bir-birindən fərqlidir. Biz bu yazıda Sədranın "Üsuli-kafi"yə yazdığı şərhdə istifadə etdiyi arqumentlərə işarə edəcəyik. Molla Sədra bu kitabın "İztirarun ila Hüccət" fəslindəki ilk hədisin şərhində arqumentlərini bir neçə müqəddimə əsasında bəyan edir:

1. **Birinci müqəddimə:** *Bizim hər şeyə qadir olan xaliqimiz vardır;*
2. **İkinci müqəddimə:** *Bu xaliq hiss üzvləri ilə dərk ediləcək cisim və maddədən təşkil olunmamışdır;*
3. **Üçüncü müqəddimə**: *Bu xaliq elm və hikmətinə əsasən bəndələri üçün məsləhət olana, dünya və axirətdəki xeyirli cəhətlərə tam agahdır;*

---

[2] Şəvahidür-Rübubiyyə fil mənahicus-sülukiyyə, səh/401, Əl-Məbdə vəl-məad, c/2, səh/806, Təfsirül Quranil-Kərim. c/6, səh/281

[3] Şəvahidür-Rübubiyyə, səh/419-421

[4] Əl-Məbdə vəlməad, c.2, səh/815-818

[5] Məfatihül-ğeyb, səh/479-480

4. **Dördüncü müqəddimə:** *Allah cisim və maddədən təşkil olunmadığına görə materiyaya birbaşa deyil, vasitələrlə təsir edir. Yaradılışda, təsir və tədbirdə vasitələrə malikdir.*
5. **Beşinci müqəddimə:** *Camaat dünya və axirət həyatlarında həqiqi səadətə qovuşmağın yollarını onlara öyrədəcək bir şəxsə ehtiyaclıdırlar.*

Molla Sədra beşinci müqəddimənin dəlilini açıqlayarkən camaatın tənhalıqda özlərinin bütün istəklərini həyata keçirmək qüdrətində olmayıb müəyyən məsələlərdə onlara yardımçı olacaq öz növlərindən olan (insan növündən) şəxslərə ehtiyaclı olduqlarını qeyd edir. Buna görə də insan növü fərdlərin birinin digərinə yardım edən, bir-birilərinin ehtiyacını ödəməyə çalışan cəmiyyətlər və insan qrupları yaradır. Digər tərəfdən də yaranmış bu cəmiyyətlərdə hərə öz mənafeyini qoruduğundan fərdlər arasında toqquşmaların da baş verməsi ehtimalı vardır. Buna görə də bu toqquşmaların, fikirayrılığının aradan qaldırılmasından ötrü qayda-qanunlara ehtiyac duyulacaq. Bu qayda-qanunlar da bir nəfər qanunverici şəxsin olmasını tələb edir. Bu qanunvericinin də insan olması gərəkdir. Çünki əgər bu qanunverici fərd mələklərdən olarsa, camaat cismani olmadıqları üçün onları müşahidə edə bilməz. Mələklər cismani olmadıqlarından onları cismani şəkildə yalnız nəfslərinin şiddət və qüvvəsi yüksək olan çox az sayda insanlar (nəbilər) müşahidə edə bilər. Molla Sədraya görə bu qanunverici fərd möcüzə və xariqüladə işlər də görməlidir ki, onun iddiasının doğruluğu öz təsdiqini tapsın və camaatın ona tabe olaraq itaət etmələri güclənsin.

Molla Sədra yuxarıda işarə etdiyimiz müqəddimələri qeyd etdikdən sonra insan növünün bəqası və səadətə qovuşmasından ötrü peyğəmbərlərin varlığının məsləhət və daha xeyirli olduğunu qeyd edir. Allah-taala mütləq şəkildə elm və hikmət sahibi olduğuna görə peyğəmbərlərin göndərilməsinin xeyirli olmasından agahdır. Digər tərəfdən isə Allahın elmi (feli) aktiv və təsirli olduğundan Onun iradəsi hansısa bir xeyir işin baş tutmasına yönəldiyi anda həmin iş həyata keçir və var olur. İnsanların da hər zaman Allah tərəfindən göndərilən bir nəfər nəbi və vasitəyə ehtiyacları vardır. Buna görə də nəbilərin varlığının məsləhətli olduğu üçün Allah hər bir zaman üçün peyğəmbər göndərmişdir. Molla Sədra əlavə olaraq qeyd edir ki, insanlar üçün məsləhət və xeyirli olan qaşların, ayaq formalarının və s. zahirdə elə də əhəmiyyətli

görünməyən şeylərdən agah olub bunları insana əta edən Allah onların səadətə və doğru yola hidayət olunmalarından ötrü zəruri və xeyirli olan bir nəfərin göndərilməsindən də qafil ola bilməz.

Molla Sədra bu dəlillərin üç hissədən ibarət olduğunu qeyd edir:

1. Peyğəmbərin varlığı vacibdir;

2. Peyğəmbərlər insan növündən olmalıdır;

3. Peyğəmbərlər gərək möcüzə və xariqüladə işlər vasitəsilə digər insanlardan seçilsin.[6]

Molla Sədranın qeyd olunan və digər kitablarda işarə etdiyi müqəddimələrdən məlum olur ki, bu dəlillərin hamısı beşinci müqəddimənin isbatına yönəlmişdir. Yəni İslam ümmətinin ictimai, siyasi, iqtisadi ehtiyaclarının ödənilməsi, həmçinin onların dünya və axirət səadətinə qovuşmaları üçün yolların tanıtdırılması peyğəmbərlərin öhdəsinədir ki, bu iş onların varlığını zəruri edir.

**c) Peyğəmbərliyin (nübuvvətin) sonu;**

Molla Sədra peyğəmbərliyin sonu və vəhyin kəsilməsi barədə fikirlərini "Şəhvahidür-Rububiyyə" və "Məfatihül-ğeyb" kitablarında qeyd etmişdir. Əgər Molla Sədraya görə vəhy ancaq insanların Allah tərəfindən təlimləndirilməsi kimi başa düşülsə, belə bir vəhy yer üzündən kəsilməz və ya başqa sözlə desək, belə bir nübuvvət heç vaxt tamamlanmaz və davamlı olar. Lakin vəhy dedikdə vəhy mələyinin gözlə görüləcək və səsinin eşidiləcək formada olan timsalının canlanması nəzərdə tutulsa, deməliyik ki, belə bir vəhy və ya nübuvvət Peyğəmbərin (s) besəti ilə tamamlanmış və sona çatmışdır. Bundan sonra heç vaxt vəhy mələyi Peyğəmbərə (s) nazil olduğu formada kimsəyə nazil olub ona ilahi kəlamları çatdırmayacaq.

---

[6] Üsuli Kafinin şərhi, səh/390-395

Molla Sədra bunları qeyd etdikdən sonra nübuvvətin hökm və mahiyyət baxımından sona çatmadığını deyir. Molla Sədraya görə nübuvvət hökm baxımından imamlar, din alimləri və müctəhidlər vasitəsilə davam etməkdədir. Muhəmmədin (s) nübuvvətinin hökmü gələcəkdə bu yolla davam edəcək. Nübuvət mahiyyət baxımından da Allahın kamil övliyaları tərəfindən davamlı olacaq. Peyğəmbərlərin nübuvvəti zahiri olduğu halda Allah övliyalarındakı nübuvvət qeybi və batini formadadır.

Molla Sədraya görə övliyalar iki qrupa bölünür. Onların bəziləri nübuvvəti birbaşa Allah tərəfindən əxz edirlər. Bu həmin haldır ki, Allah-taala nəbidən sonra bu məqamı onun canişininə əta edir. Lakin bəzi övliyalara nübuvvət məqamı elə nəbilərin özündən irs olaraq keçir.

Molla Sədraya görə bu növ vilayətin nümunəsi Peyğəmbərin (s) Əhli-beytidir (ə), yəni məsum imamlardır. Onlardakı nübuvvət məqamı qeybi və batini formadadır.[7] Buna görə də Molla Sədranın "Nübuvvətin sonu" fəslindəki rəyini nəzərə alaraq deyə bilərik ki, birincisi nübuvvət və imamət arasında elə də əsaslı fərq yoxdur, ikincisi isə nübuvvət dairəsi qapalı deyil və imamət bu dairənin davamıdır.

**d) Vilayət;**

Əvvəldə qeyd etdiyimiz kimi, Molla Sədraya görə nübuvvət mahiyyət baxımından vilayət yolu ilə davam edəcək. Həmçinin imamların da həmin vilayətin nümunələri olmasına da işarə etdik. İndi isə Molla Sədranın vilayət barədə fikirlərinə işarə edəcəyik.

O, "Məfatihül-ğeyb" kitabında ayrıca bir fəsildə vilayət mövzusu barədə ətraflı söhbət açır və ən əvvəl onun lüğətdəki mənasının araşdırılmasından başlayır. Molla Sədraya görə "vilayət" kəlməsi yaxınlıq mənasında olan "vələyə" kəlməsindən törəyib. Ona görə də məhbuba yaxın olan həbibi (sevgilini) "vəli" adlandırırlar. Amma vilayətin terminologi mənasına gəlincə isə o deyir ki, vilayət iki "ümumi" və "xüsusi" qismlərə

---

[7] Şəhavidür-Rububiyyə, səh/433-441, Məfatihül-ğeyb, səh/42-43

bölünür. Ümumi vilayət Allaha iman və saleh işlərin yerinə yetirilməsi anlamındadır. Lakin xüsusi vilayət isə şəxsin zat, sifət (xüsusiyyət) və əməl cəhətindən Allahda fəna olması deməkdir. Xüsusi vilayət özü də iki yerə bölünür: əta olunmuş və kəsb olunmuş (əldə olunmuş) vilayət.

Əta olunmuş xüsusi vilayət bir şəxsin mücadilə və səy etmədən öncə Allahın cazibə qüvvəsi vasitəsilə Haqqa tərəf cəzb olunmasıdır. Cəzb olunması mücadiləsindən öncə olan şəxsə "məhbub" (sevilən) deyilir. Kəsb olunmuş xüsusi vilayət isə bir şəxsin mücadilə və səyindən sonra Allahın cazibə qüvvəsi vasitəsilə haqqa tərəf yaxınlaşmasıdır. Mücadiləsi cazibəsindən öncə olan şəxsə isə "mühibb" (sevən) deyilir.

Molla Sədra əlavə olaraq qeyd edir ki, bu vilayət kəsbi hesab olunsa da, nəticə etibarı ilə şəxsin mücadiləsi, ibadəti və nəfsinin saflaşdırılmasına görədir və bu da Allahın batini cazibəsinin sayəsindədir. Bu cazibə şəxsi batini olaraq Allaha yaxınlaşmağa dəvət edir. Bu batini cazibələr olmasa, heç bir kəs öz nəfsani istəkllərindən əl çəkməz.

Molla Sədraya görə əta olunmuş xüsusi vilayətə sahib şəxslər, yəni məhbublar, kəsb olunmuş xüsusi vilayətə sahib olan kəslərdən, yəni mühibbilərdən daha çox kamala malikdirlər.

Molla Sədraya görə vəlini qeyri-vəlidən ayıran vilayətin əsli Allaha, Onun sifət və nişanələrinə, mələklərə, müqəddəs kitablara, rəsullara və axirət gününə iman və arqumentlərə əsaslanan şühudi elmdir. Bu elm heç vaxt məhv ola, dəyişilə və unudula bilməz. Vəli vasitəsilə kəramət və xariqüladə işlərin görülməsi icazəli olsa da, bunlar vilayətin şərtlərindən hesab olunmur. Deməli, hər xariqüladə işlər görüb kəramət sahibi olanlar vəli hesab olunmaz və vilayət sahibi olan bir şəxsin vilayəti də bu işləri görmədiyinə görə inkar oluna bilməz. Çünki bəzən övliya olmayanlar da xariqüladə işlər görürlər. [8]

[8] Məfatihül-ğeyb, səh/487-489

## *İmamət nəzəriyyəsi*

***"Nübuvvət nəzəriyyəsi"*** fəslində Molla Sədranın nübuvvət, vəhy və möcüzə ilə bağlı fikirlərinə işarə edərək onun bu mövzular barəsindəki müxtəlif fəlsəfi yanaşmalarını bəyan etdik. Həmçinin Molla Sədra nəzərində nəbi, imam və vəli arasındakı bənzərliklərə də işarə olundu. Elə buna görə də Molla Sədranın imamət mövzusu ilə bağlı fikirlərini bəyan etməzdən öncə onun nübuvvətlə bağlı fikirlərinə qısaca da olsa işarə etməyi zəruri hesab etdik.

Biz bu fəsildə Molla Sədranın rəyinə əsasən, imamın varlığının bir neçə faydasına işarə etdikdən sonra imamətin vacibliyi və buna aid məsələləri qeyd edəcəyik. Sonda isə onun görüşlərinə əsasən məhdəviyyət mövzusunu araşdıracağıq.

### *a) İmamın varlığının faydaları;*

Əvvəldə də qeyd etdiyimiz kimi, Molla Sədra nəbilər və imamların xüsusiyyəti barədə "Üsuli-kafi"yə yazdığı şərhdə daha əhatəli və geniş söhbət açır. Molla Sədra bu xüsusiyyətlərin nəbi və imam üçün müştərək olduğunu desə də, biz bu xüsusiyyətləri ayrıca olaraq bu fəsildə "İmamın varlığının faydaları" ünvanı altında araşdırılmasını məqsədəuyğun hesab etdik. Bu xüsusiyyətlər Molla Sədradan öncəki fəlsəfi məktəblərdə ötəri və örtülü şəkildə bəyan olunsa da, çəkinmədən demək olar ki, Sədra fəlsəfəsində bu xüsusiyyətlərə daha geniş və aydın şəkildə işarə olunub. Həmçinin o, bu xüsusiyyətlərdən imamın varlığının və zəmanə imamına etiqadın zəruriliyi mövzusunda arqument kimi istifadə etmişdir. Molla Sədra "Üsuli-kafi" kitabına yazdığı şərhdə məxluqat üçün höccət (bələdçi), tabeçiyinində olan ümmət üçün şahid, vəli və əmr sahibi, elm xəzinəsi olmaq kimi sifətləri imamlara məxsus xüsusiyyətlərdən hesab etmişdir.[9] Bu xüsusiyyətlərin hamısını iki fayda altında toplaya bilərik ki, biri (təşrii) şərti, o birisi isə (təkvini) həqiqidir.

[9] Üsuli-kafinin şərhi, "fəzlül elm" və "höccət" kitabları, səh/587-607-615-616-617

Molla Sədra imamın varlığının şərti (təşrii) faydasını bəyan edərək onun Allahın məxluqatı üçün höccəti (bələdçisi) olmasına işarə edir. O, "Üsuli-kafi" kitabına yazdığı şərhdə "İnnəl Huccətə Lə təqumu lilləhi ələl xəlqihi illə bi-İmam" fəslindəki birinci hədisi [10] şərh edərkən imamı batini höccət kimi tanıtdırır. Molla Sədra bu hədisi şərh edərkən höccətin iki növ zahiri və batini olduğunu qeyd edir. Molla Sədraya görə batini höccət bəzilərinin qəlbində təcəlli edən ilahi və müqəddəs nurdur. Kamil insan həmin nurun vasitəsilə yaranışın sirlərindən, məaddan, Allaha yaxınlaşmağa və ona tərəf aparan yollardan və s. agah olur.

Lakin zahiri höccətlər həmin nəbilər və imamlardır. Molla Sədraya görə yalnız çox nadir və az sayda insan batini höccət vasitəsilə hidayət olur. Əksəriyyət Allahı tanımaq, ona yaxınlaşmaq və s. məsələlərə ancaq nəbilər və imamlara tabe olmaq və dediklərinə əməl etmək vasitəsilə nail olurlar.

Amma Molla Sədra imamın həqiqi (təkvini) faydasına isə bu fəslin dördüncü hədisinin şərhində işarə etmişdir. Bu hədisi Aban ibn Tələb İmam Baqirdən (ə) nəql edir ki, buyurub: "Allahın höccəti məxluqatdan öncə olmuş, məxluqatla birlikdədir və onlardan sonra da olacaqdır".[11] Molla Sədra bu hədisin şərhində peyğəmbər və imamların yalnız məxluqatın hidayət olunmaları üçün yaradıldığını güman edən adi camaatın düşüncəsinə irad bildirmiş və bu fikri natamam hesab etmişdir. Sədraya görə peyğəmbər və imamların yaradılışındakı hədəf yalnız məxluqatın islahı deyil. Onların yaradılışı məxluqatın var olması üçün vasitədirlər. O, öz nəzəriyyəsini belə əsaslandırır. Varlıq iki cürdür:

1. ***Varlıq özündə özü üçün (Vucudun fi nəfsihi li nəfsin);***
2. ***Varlıq özündə qeyrisi üçün (Vucudun fi nəfsihi li ğeyrih);***

Özündə özü üçün olan varlıq və ya bağlı varlıq aksidensiyaların (ərəzlərin) varlığı kimidir. Onların özündə olan varlıqları onların obyektləri üçün olan varlıqları kimidir. Ona görə də obyektlərin məhv olması ilə aksidensiyalar da məhv olur.

---

[10] "Allahın imam olmadan məxluqat üçü höccəti tamamlanmaz". Üsuli-kafinin şərhi, c/1, səh/250
[11] Üsuli-kafinin şərhi, c/1, səh/250-251

Amma ayrı-ayrı substansiyaların (cövhər) varlığı özündə qeyrisi üçündür. Lakin bəzən insanlardakı dərkedici nəfslər kimi nisbi varlığa da malik olurlar. Belə ki həmin dərkedici nəfslər özündə özü üçün həqiqi varlığa malikdirlər. Digər tərəfdən də özündə qeyrisi üçün olan varlığa malikdirlər ki, bu da onların həmin cismani bədənləridir. Buna görə də nəfsin bədənlə əlaqəsi kəsildikdə nəfs olmaqdan xaric olsa da (bədən məhv olsa da), onun (nəfsin) həqiqi varlığı qalmaqdadır.

Molla Sədraya görə nəbilər və övliyaların da varlıqları belədir. Bu mənada ki məxluqat üçün höccət olmaları onların nisbi varlığıdır. Buna görə də əgər yaradılış olmazsa, onlar da məxluqat üçün höccət olmayacaqlar. Amma bu onların yaradılış üçün vasitə olan həqiqi varlıqlarının da olmayacağı mənasında deyil. Onların həqiqi varlıqları əbədi olaraq var olacaqdır.

Molla Sədraya görə imamlar məxluqatın var olması üçün vasitə olmaları baxımından yaradılışdan öncə də var olmuşlar. Materiyanın və bütün maddi aləmin onlarda tamamlanması baxımından yaradılışdan sonra da mövcuddurlar. Həmçinin məxluqata höccət olmaları baxımından məxluqatla birlikdə mövcuddurlar. Camaat Allaha sarı onların nuru vasitəsilə yönəlir.[12]

Beləcə, Molla Sədra imamın var olmasının (təşrii) şərti və (təkvini) həqiqi faydası arasında fərq qoyur. Bu metoda əsasən isə imamın yaradılışdan əvvəl və sonrakı mövcudluğu imamın varlığının (təkvini) həqiqi, imamın məxluqatla birlikdə mövcudluğu isə onun varlığının (təşrii) şərti faydasıdır.

***b) Bütün zamanlarda imamın varlığının vacibliyi;***

Əvvəlki fəsillərdə peyğəmbərliklə imamətin oxşarlığı, imamətin nübuvvət dairəsinin davamı olması və hər bir dövrdə peyğəmbərlərin göndərilməsinin zərurəti barədə söhbət açmışdıq. Molla Sədranın peyğəmbərlərin besətinin zəruriliyini isbatlandığı arqumentlərdən istifadə edərək hər bir zamanda bir imamın varlığının zərurətini də isbatlamaq olar. Başqa sözlə desək, peyğəmbərlərin göndərilməsinin zərurətindən danışdığımız zaman insanların Allah ilə onların arasında vasitə olacaq

[12] Üsuli-kafinin şərhi, “fəzlül elm” və “höccət” kitabları, səh/467-468

peyğəmbərin varlığına hər zaman ehtiyacları olduğunu qeyd etmişdik. Belə bir şəxsin yer üzərində olmasının faydasını və xeyrini nəzərə alaraq hər zamanda yer üzərində Allahın xəlifəsi və bəndələri ilə Onun arasında vasitə rolunu oynayan kamil bir insanların olması labüddür. Əvvəldə qeyd etdiyimiz kimi, belə bir şəxs vəhy mələyini görüb eşitmədiyi üçün şəriət sahibi də olmayacaq. Lakin ilhamlar və qəlbində təcəlli edən elm nuru vasitəsilə peyğəmbər deyil, imam olaraq camaatın hidayət olunması ilə məşğul olacaqdır.

Molla Sədranın nübuvvət və vilayət barəsindəki görüşlərini araşdırdığımız zaman aldığımız bu nəticə aşkar şəkildə məlum olur. Qeyd edilənlərdən başqa Molla Sədra hər zaman üçün imamın varlığının zərurəti barədə "Üsuli-kafi" kitabına yazdığı şərhdə ayrıca və müstəqil arqumentlərdən istifadə etmişdir ki, onlara da işarə edəcəyik.

## *İmamın varlığının zərurətinin arqumentləri*

### *Birinci arqument*

Molla Sədra bu arqumenti "əl-İztirar ilə Hüccət" fəslinin üçüncü hədisinin şərhində qeyd edir. O, ilk öncə müqəddimə olaraq hədisin mətnində də yer almış təmsili bəyan edir. Hiss üzvləri vasitəsilə dərk olunan məlumatlar arasında ixtilaf yaranıb həmin məlumatların doğruluğunda şəkkin yaranmasına bais olarsa, qəlb imam və rəhbər olaraq şəkləri aradan qaldırıb haqqı ortaya çıxarar. Deməli, qəlbin varlığı bədən üzvləri arasındakı ixtilafların aradan qaldırılması və onların idarə olunmasından ötrü məsləhətlidir. Bu müqayisə ilə deyə bilərik ki, İslam ümmətinin arasında ixtilaf və şəkk-şübhə yarandığı zaman bu problemlərin həll olunması üçün müraciət edə biləcəkləri bir nəfər imamın varlığı məsləhət və zərurətdir. Digər tərəfdən isə Allahın elmi təsirli olduğundan Onun məsləhət bildiyi hər şey zəruri olaraq var olacaqdır. Deməli, hər zaman üçün Allah tərəfindən bir nəfər imamın təyin olunması vacib və zəruridir.[13]

Bu arqumenti araşdırdıqda məlum olur ki, bu arqument nəbilərin besətinin zəruriliyinin isbatında qeyd olunan beşinci müqəddimədir. Bir fərqlə ki buradakı hədəf yalnız imamın varlığının isbatıdır. Lakin hər iki mövzuda peyğəmbərlərin və imamların varlığını zəruri edən səbəb camaatın şəriət hökmlərini icra edəcək kamil ixtiyar sahibi olan hakimə ehtiyaclı olmalarıdır.

### *İkinci arqument*

Molla Sədra **"İnnəl ərdə lə təxlu min Hüccət"** (Həqiqətən də, yer üzü höccətsiz qalmaz) fəslindəki birinci hədisin şərhində İslam mütəkəllimlərinin imamın varlığının zərurətinə dair istifadə etdikləri arqumentdən, yəni "lütf prinsipindən" istifadə edir. Bu mənada ki imamın varlığı Allahın bəndələri üçün bir lütfü və nemətidir. Belə ki imamın

---

[13] Üsuli-kafinin şərhi, "əl-İztirar ilə Hüccət" fəsli, səh/401-405

varlığı və onun rəhbər olaraq insanları idarə etməsi onların pisliklərdən çəkinib vacibata sövq olunmaları üçün bir vasitədir. Digər tərəfdən də Allah üçün məxluqata lütf göstərmək vacibdir. Deməli, Allahın imam təyin etməsi vacibdir.[14]

***Üçüncü arqument***

Molla Sədra **"İnnəl ərdə lə təxlu min Hüccət"** fəslindəki onuncu hədisin şərhində yer üzünün höccətsiz qalmasının qeyri-mümkünlüyünə və varlığın müxtəlif mərhələlərinə (dərəcələlərinə) əsaslanan başqa bir arqumenti qeyd edir.

Allah-taala varlıqları ən üstündən başlayaraq aşağıya doğru olmaqla müxtəlif mərhələ və dərəcələrdə xəlq etmiş və hər bir dərəcədə olan varlığın özündən üstün dərəcəyə qədər tərəqqi etməsini iradə etmişdir. Bu ardıcıllıqla hər bir üstün dərəcə aşağı dərəcədə olan varlqların son dərəcəsi və onlar üçün nəhayət hesab olunacaq. Deməli, yerin son dərəcəsi möhkəmlənib sabitlənmək, bitkilərin nəhayəti heyvanata yetişmək, heyvanlar üçün son dərəcə və nəhayət isə insan məqamı ilə üzləşməkdir. İnsanlar üçün nəhayət və son dərəcə isə imam məqamına və yaxud həmin kamil insan dərəcəsinə yetişməkdir. Çünki ən uca məqam və dərəcə imamət məqamıdır. Deməli, bu nəticəyə gəlmək olar ki yer və ondakı bütün varlıqların hamısı imam məqamına sarı hərəkətdədirlər və bu varlıqların yaradılışının qayəsi də məhz elə budur. Digər tərəfdən əgər bir şey başqa bir şeyə görə yaradılırsa, həmin şey özü olmayınca ona xatir yaradılan şey də olmayacaq (Məsələn "a" "b"yə xatir yaradılırsa, "b" olmayınca "a" da olmayacaq). Deməli, yer və ondakı bütün varlıqlar imamət məqamına görə yaradıldıqlarından imam olmayınca onların da var olması mümkün deyil. Deməli, əgər yer bir an belə imamsız qalarsa, məhv olub aradan gedər.[15]

Molla Sədra bu arqumenti geniş və ətraflı izah etmir və buyurur ki, əgər imam olmazsa, yer və ondakı bütün varlıqlar məhv olub aradan gedər. Lakin biz belə düşünürük ki, Molla Sədranın da qeyd etdiyi arqumentdə olduğu kimi, imam öz dərəcəsindən aşağı dərəcədə olan varlıqların məqsədli səbəbidir (illəti-ğayi). Deməli,

---

[14] Üsuli-kafinin şərhi, "İnnəl ərdə lə təxlu min Hüccət" fəsli, səh/474-475

[15] Üsuli-kafinin şərhi, "İnnəl ərdə lə təxlu min Hüccət" fəsli, 487-488

əgər hər hansısa bir zaman imamın olmadığını fərz etsək, bu fərz digər varlıqların nəhayəti və ilkin səbəbinin olması ilə nəticələnəcək. Məqsədli səbəb tam səbəbin (illəti-tammə) bir hissəsi olduğundan bu fərzə əsasən varlıqların tam səbəbinin də olmaması deməkdir. Belə olan halda isə tam səbəbin varlığına bağlı olan nəticə (məlul) də olmayacaq.

Molla Sədra **"İnnəl ərdə lə təxlu min Hüccət"** fəslindəki İbn Əbu Hərasənin İmam Baqirdən (ə) nəql etdiyi **"Əgər yer üzü imamsız qalarsa, dənizlər dalğalandığı kimi, yer üzü ondakı varlıqlarla birlikdə dalğalanıb onları əziyyətə düçar edər"**[16] on ikinci hədisin şərhində bu məsələyə işarə edərək yazır:

*"Bu hədis əvvəldə qeyd etdiyimiz kimi, nəbi və imamların varlığının yalnız bəşəriyyətin hidayəti, onların dünya və axirət məsələlərinin islahına yönlməməsinin təsdiqidir. Yer və ondakı bütün məxluqların var olması nəbilər və imamların varlığına bağlıdır. Çünki peyğəmbər və imamın varlığı yer və onda olan məxluqların var olması üçün məqsədli səbəbdir. Deməli, yer və onda olan bütün varlıqlar bir nəfər kamil insan (peyğəmbər və ya imam) olmazsa, bir an belə var ola bilməz".*[17]

O, həmçinin "Məfatihül-ğeyb" kitabında da yuxarıdakı yanaşmaya bənzər bir məsələni işıqlandırmışdır. Orada da Sədra imamları, övliyaları və ən nəhayət Peyğəmbərin (s) cins və siniflərin ən üstün dərəcəsi kimi təqdim edir. Çünki cinsin yaradılışındakı məqsəd onun xüsusi bir növə, növün yaradılışındakı məqsəd onun xüsusi bir sinfə, sinfin yaradılışındakı məqsəd isə onun xüsusi bir şəxsə yetişməsidir. Deməli, bütün cinslərin, növlərin və fəsillərin yaradılmasında hədəf onların Allahın rəhmətinə nail omuş xüsusi bir şəxsə yetişmələridir. Bu xüsusi şəxs həm nəbi, həm imam və ən sonda Xatəmül-Ənbiya (s) da (peyğəmbərlərin sonuncusu Hz. Muhəmməd) ola bilər".[18] Buna görə də bu bəyan vasitəsilə əgər müəyyən bir zaman kəsiyində aləmdə belə bir şəxs, yəni imam və kamil bir insan olmazsa, bütün yaradılışın

---

[16] Üsuli-Kafi, Seyid Cavad Mustəfəvinin (farsca) tərcümə və şərhi, c/1, səh/253

[17] Üsuli-kafinin şərhi, "İnnəl ərdə lə təxlu min Hüccət" fəsli, səh/501-502

[18] Məfatihül-ğeyb, səh/481 – bənzər ifadələrlə eyni fikir bu kitabda da var: Əl-Məzahirül-ilahiyyə fi əsraril ulumil kəlamiyyə, səh/146-147

faydasız olacağı qənatinə gələ bilərik. Bu isə Allahın hikməti ilə ziddiyyət təşkil etdiyi üçün qeyri-mümkündür.

*Dördüncü arqument*

Molla Sədra **"İnnəhu ləv ləm yəkun fil ərdi illə rəculan ləkanə əhəduhuma əl-Hüccət"**[19] fəslindəki birinci hədisin şərhində "ən üstünün varlığı qaydası"na əsasən başqa bir arqumenti təqdim edir.

Varlıq aləmi Allah-taala tərəfindən müxtəlif mərtəbə və ya dərəcələrdə xəlq olunmuşdur. Bu dərəcələr ən üstündən başlayaraq ən aşağı dərəcəyə doğru davam edir. Buna görə də hər bir üstün mərtəbə özündən aşağı mərtəbədən öndədir. Bu mərtəbələrin arasında səbəbiyyət əlaqəsi olduğundan ən üstün mərtəbə var olmadıqca ondan aşağı mərtəbə var ola bilməz. Buna görə də insan mərtəbəsi və ondan da üstün olan kamil insan və imam mərtəbəsi yer və ondakı bütün varlıqlardan öndədir, yer və ondakı varlıqların var olma səbəbidir. Deməli, hər hansısa bir zaman kəsiyində aləmlərin yaranma səbəbi və ən üstün varlıq olan imam olmazsa, bu səbəbin nəticəsi olan yer və ondakı varlıqlar da var ola bilməz. [20]

Molla Sədra bu arqumenti qeyd etdikdən sonra ona gətirilə biləcək iradı da vurğulayaraq şərh edir. Birinci irad bundan ibarətdir ki, "ən üstünün varlığı qaydası" yalnız materiya və imkandan xali olan birdəfəlik yaradılmışlar aləmində (qeyri-maddi varlıq aləmində) keçərlidir. Əks təqdirdə, bəzən materiya aləmində imkanın olduğunu nəzərə alaraq "ən üstün mümkün varlıq" kənar maneələrə və ya xüsusi imkanın olmamasına görə var ola bilməməsi halı ilə qarşılaşa bilərik. Molla Sədra bu iradın cavabında bildirir ki, bizim bu mövzu barədə söhbətimiz insan, sfera və digər "ümumi mahiyyət və növlər" barədədir. "Ümumi mahiyyət və növlər"in hökmü isə "birdəfəlik yaradılmışlar"ın hökmü kimi olub zat etibarı ilə "xüsusi imkana" ehtiyac duymurlar.

---

[19] "Həqiqətən də yer üzərində iki nəfər qalarsa, onlardan biri mütləq höccətdir."

[20] Üsuli-kafinin şərhi, "İnnəhu ləv ləm yəkun fil ərdi illə rəculan ləkanə əhəduhuma əl-Hüccət", səh/502-503

Molla Sədra bu açıqlama ilə arqumentin doğru olmamasının da iddia edilə biləcəyini əlavə edir. Çünki höccət və qeyri-höccət, imam və rəiyyətin hamısı xüsusi bir növün fərdləridir və biri digərindən öndə və ya axırda olmamaqla birinin o birisindən üstünlüyü də yoxdur. Belə olan halda isə varlığın xüsusi mərtəbəsindən həmin höccət olan ən üstün mərtəbəsinə yetişəcəyindən söhbət gedə bilməz.

Molla Sədra bu irada da cavab verərək qeyd edir ki, höccət və qeyri-höccət, nəbi və qeyri-nəbi materiya və cisim baxımından eyni növdəndirlər. Lakin mənəvi və ruhani baxımdan insanlar müxtəlif növlərə bölünmüşdür ki, ruhani baxımdan höccət növünün digər insan növləri ilə əlaqəsi, insan növünün digər heyvan növləri ilə olan əlaqəsi kimidir. Buna görə də Molla Sədraya görə bu qayda höccət və qeyri-höccətlər mövzusunda da keçərlidir.[21]

### *Beşinci arqument*

Molla Sədra "Hədid" surəsinin 25-ci ayəsinin təfsirində insanların peyğəmbərlər və övliyalar vasitəsilə hidayət olunmasının zəruriliyi barədə bir məqama işarə edir. Bu məqamı da həm peyğəmbərlərin besətinin, hə də imamların hər zamanda varlığının zəruriliyi üçün arqument olaraq istifadə etmək olar. Molla Sədra deyir ki, insanın kamilləşməsi iki şeyə bağlıdır:

1. Hər şeyin həqiqətindən agahlıq;
2. Yaxşı xüsusiyyətləri əxz edib pis işlərdən çəkinmək.

Molla Sədraya görə, insan xəlq olduqda və dünyaya gəldiyində bu kamillikdən faydalanmamışdır. Bu kamalı yalnız ilahi feyzə bağlı olub hər şeyi "vəhy" və yaxud da "ilham" vasitəsilə kəsb edən şəxslər əldə edə bilər. Digər tərəfdən də mələkut aləminə bağlı olmayan şəxslər üçün isə nicat yolunu tapmaq yalnız kamilliyi Allah tərəfindən əxz etmiş peyğəmbərlər və övliyalar vasitəsilə mümkündür. Buna görə də hər bir

---

[21] Üsuli-kafinin şərhi, "İnnəhu ləv ləm yəkun fil ərdi illə rəculan ləkanə əhəduhuma əl-Hüccət", səh/503-504

zaman insanlara nicat yolunu göstərib onların kamilləşməsində bələdçi olacaq peyğəmbər və ya onun canişininin varlığı zəruridir. [22]

*Altıncı arqument*

Molla Sədra **"İnnəl ərdə lə təxlu min Hüccət"** fəslindəki ikinci hədisin şərhində imamın varlığının zərurəti barədə başqa bir arqument qeyd edir. İnsanların xəta və səhvdən sığortalanmadıqları üçün Allahın dinində əskiltmə və ya bidətlər yaratmaları mümkündür. Buna görə də bu bidətləri aradan qaldırıb nöqsanları düzəltməkdən ötrü bir nəfər imamın varlığı zəruridir. Molla Sədra bu arqumenti qeyd etdikdən sonra belə bir iradla çıxış edir ki, əgər insanlar əqllərindən istifadə etsələr, yanlışı doğrudan ayıra bilərlər. Çünki bu məsələdə meyar əqldir. Deməli, əqldən istifadə edərək xəta və yanlışları ayırd edə biləcəyimiz zaman bizim üçün hər hansısa bir imama ehtiyac yoxdur. Sədra bu irada cavab olaraq buyurur ki, belə bir meyarın olmasına baxmayaraq, çox vaxt hətta mütəfəkkirlər belə buna riayət etmirlər və yanaşmalarında kifayət qədər xətaya yol verdiklərinin şahidi oluruq. O, misal olaraq aləmin əzəli (qədim) və yaxud yaradılan (hadis) olması mövzusu barədə ortaya çıxan təzadlı fəlsəfi görüşlərə işarə edərək qeyd edir ki, əgər əql kifayət etsəydi, onlar bu məsələdə çaşqınlığa düşərək müxtəlif görüşlərə malik olmaz və fərqli nəzərlər irəli sürməzdilər. Molla Sədra öz fikrini daha da möhkəmləndirmək üçün əlavə edir ki, dinin bəzi məsələlərinin qavranılması əqlin hüdudlarından xaricdir. Buna görə də əqldən daha üstün olan həmin vilayət və nübuvvətə ehtiyac duyulur.[23]

*Yeddinci arqument*

Molla Sədra **"İnnəl ərdə lə təxlu min Hüccət"** fəslindəki beşinci hədisin şərhində başqa bir arqumentə işarə edir. Əbu Bəsirin İmam Sadiqə (ə) və ya İmam Baqirə (ə) istinadən nəql etdiyi hədisdə deyilir: "Allah-taala yer üzünü alimsiz qoymaz. Əgər belə

---

[22] Təfsirül-Quranil-Kərim, c/6, səh/275

[23] Üsuli-kafinin şərhi, "İnnəl ərdə lə təxlu min Hüccət", səh/478-479

etməsəydi (yəni yer üzü alimsiz qalsaydı), o zaman haqqı batildən seçmək mümkün olmazdı".[24] Molla Sədra hədisi şərh edərkən qeyd edir ki, "alim" dedikdə ilahi elmləri vəhy və yaxud ilham vasitəsilə (lədunni elm) mənimsəyən rəbbani alim nəzərdə tutulur. Buna görə də aləm alt-üst olsa da, onun qəlbində azacıq olsa belə, şəkk-şübhə yaranması ehtimalı qeyri-mümkündür. Lakin öz elmini eşidərək və ya oxuduqlarına əsasən kəsb edən alimin qəlbində şəkk və tərəddüdün yaranma ehtimalı mümkündür.

Molla Sədra belə bir müqəddimədən sonra qeyd edir ki, əgər müəyyən bir zaman kəsiyində yer üzündə belə bir rəbbani alim hesab olunan peyğəmbər və ya imam olmazsa, bəşərin əqlinin fövqündə olan məsələlərin dərk olunmasında haqqı batildən seçmək qeyri-mümkün olar. Deməli, hər bir zamanda lədunni (Allah tərəfindən əxz edilmiş) elmin köməkliyi, vəhy və ilhamın nuru vasitəsilə camaatın haqqı batildən ayırmasında bələdçilik edən bir peyğəmbər və ya imamın varlığı zəruridir.[25]

*Səkkizinci arqument*

Molla Sədra **"İnnəl ərdə lə təxlu min Hüccət"** fəslindəki altıncı hədisin şərhində başqa bir arqumenti işıqlandırır. O, dünya və axirət işlərində camatın ona tabe olması üçün imamın varlığının zərurətinə təkid edərək camaatın imama olan ehtiyacının onların yemək-içmək, geyim və s. kimi maddi ehtiyaclarından da zəruri olduğunu vurğulayır. Deməli, Allahın hansısa zaman kəsiyində yer üzərini imamsız qoyması bu üç haldan birini zəruri edir:

a) Allahın insanın belə bir ehtiyacından xəbərdar olmaması;

b) Allahın həmin zaman üçün imamın xəlq edilməsi və yaradılmasına qadir olmaması;

c) Paxıllıq üzündən camaatın hidayət olunmasını istəməyib, onları imamsız qoyması.

---

[24] Üsuli-Kafi, c/1, səh/252

[25] Üsuli-kafinin şərhi, "İnnəl ərdə lə təxlu min Hüccət", səh/483

Bunun hər üçü batil olduğundan əldə etdiyimiz nəticə budur ki, Allah heç bir zaman kəsiyində yer üzərini höccətsiz, imamsız qoymaz.[26]

***Doqquzuncu arqument***

Molla Sədra **"İnnəl ərdə lə təxlu min Hüccət"** fəslindəki səkkizinci hədisin şərhində növbəti arqumentini təqdim edir. Əbu Bəsir İmam Sadiqin (ə) belə buyurduğunu nəql edir: "Allah yer üzərini ədalətli imamsız qoymayacaq qədər uca və böyükdür".[27]

Molla Sədra buyurur ki, hədisdə qeyd olunan imam peyğəmbərlər və onların canişinlərinə də şamil olan ümumi məfhumdur. O, imamlar və peyğəmbərlərin höccət olması yolu ilə öz arqumentini təqdim edir. Molla Sədraya görə peyğəmbər və imamların höccət (bələdçi) olması onların mövcudluğu ilə camaatın öz xaliqlərini tanıması deməkdir. Beləliklə, əgər yer üzərində peyğəmbər və ya imam olmazsa, camaat öz xaliqini tanımayacaq. Xaliqlərini tanımadıqlarına görə onları Allaha yaxınlaşdıracaq işlərin icrasını və Allahdan uzaqlaşdıracaq işlərdən çəkinməyinin yollarını, başqa sözlə desək, şəri öhdəçiliklərinin icra olunma keyfiyyətini də bilməyəcəklər. Deməli, təklif (şəri öhdəçilik) mükəlləfin (bu öhdəçiliyə əməl edən) və bu şəri öhdəçiliklərin tanınmasıdır. Belə olan təqdirdə isə xaliqini tanımayan belə bir camaatın üzərində heç bir təklif (şəri öhdəçilik) olmayacaqdır. Onların üzərində şəri öhdəçiliyin olmaması isə artıq onların insan sırasından çıxıb dördayaqlılar zümrəsinə daxil olması deməkdir. Belə olan halda isə əməllərinə görə nə savabın, nə də əzabın anlamı olmayacaq. Məhz bu batil nəticə yaranmasın deyə, yer üzərində insanlara onların xaliqlərini və şəri öhdəçiliklərini tanıtdıran höccətin (peyğəmbər və ya imamın) varlığı zəruridir.[28]

***Onuncu arqument***

[26] Üsuli-kafinin şərhi, "İnnəl ərdə lə təxlu min Hüccət", səh/483-484

[27] Üsuli-Kafi, c/1, səh/252

[28] Üsuli-kafinin şərhi, "İnnəl ərdə lə təxlu min Hüccət", səh/485-486

Molla Sədra bura qədər qeyd olunan arqumentlərdən başqa yer üzərində imamın var olmasının zəruriliyinin isbatı üçün əlavə olaraq nəqli dəlildən də istifadə edir. Bu dəlil bizim mənbələrdə peyğəmbərdən sonra Qiyamət gününə qədər ümmətin 12 rəhbəri (imamı) olmasını isbatlayacaq hədislərdir.

Bu arqument iki məsələni təsdiqləyir:

1. ***İmamlar 12 nəfərdir və Qiyamətə qədər müəyyən bir zaman kəsiyində bu imamlardan birinin varlığı zəruridir;***
2. ***Bu imamların on ikincisi qeybdə olan Həzrət Mehdidir (ə.f);***

Molla Sədra bu arqumenti **"İnnəl ərdə lə təxlu min Hüccət"** fəslindəki üçüncü hədisin şərhində qeyd edir. O, bu qədər əqli dəlillərlər yanaşı, hər bir zamanda imamın varlığının zəruriliyini sübut etmək üçün bu mövzuda istər əhli-sünnə, istərsə də şiə mühəddisləri yolu ilə peyğəmbərə istinad olunan müxtəlif nəqli dəlillər (hədislər) də qeyd etmişdir. Sədraya görə bu hədislər söz və cümlə quruluşu baxımından müxtəlif olsa da, məna baxımından təvatür həddinə yetişmişdir.

Molla Sədranın öz arqumentinin müqəddiməsi kimi qeyd etdiyi peyğəmbərə istinad olunan bu hədislərdən yorucu olmasın deyə, yalnız bir neçəsinə işarə edirik:

*"Allah-taala imaməti Hüseynin (ə) nəslində yerləşdirdi (qərar verdi) və bu Allahın Qurani-Kərimdə buyurduğudur: "(İbrahim) onu (la ilahə illallah kəlməsini) öz nəsli arasında həmişəlik qalan bir söz etdi".*[29]

*"Məndən sonra İslamın 12 əmiri vardır".*

*"Camaatın işi o zaman həll olacaq ki, onlara rəhbərlik 12 kişinin (nəfərin) öhdəsinə qoyulsun".*

*"Bu din 12 xəlifə gəlib-getməyincə tamamlanmayacaq".*

*"Mehdi (ə.f) mənim nəslimdən, Fatimənin (s.ə) övladlarındandır. O, yer üzünü zülm ilə dolduğu kimi, ədalətlə dolduracaq" və s.*

---

[29] Zuxruf/28

Bu hədislərin xilafətin Qüreyş tayfasına aid olduğuna dəlalət etdiyini iddia edən ət-Təybi Şareh əl-Məşkəvəhə cavab olaraq Molla Sədra bir məqama işarə edir ki, onu Sədranın nəqli arqumentlərinin nəticəsi kimi qəbul etmək olar. Molla Sədra deyir: "Əqlində problem olmayıb uzaqgörən hər bir şəxsə aydındır ki, səhihliyi təvatür həddinə çatmaqla öz isbatını tapmış bu hədislər peyğəmbərdən sonra onu hamısının Qüreyşdən olacaq 12 canişininin olmasına aiddir. Din onların vasitəsilə ucaldılaraq Qiyamət gününə qədər ayaqda qalacaq. Bu vəsf və bu rəqəm sayı yalnız 12 imamçı şiələrin qəbul etdiyi imamlardadır. Deməli, aydın olur ki, yer üzərində Allahın höccəti olmasa, o (yer) bir haldan başqa hala düşməyəcək." [30]

Bu minvalla Molla Sədra təvatür həddinə çatmış bu hədislərdən axırəz-zamana qədər Əhli-beytdən olan 12 imamın camaata rəhbərlik etməsi və heç bir zaman kəsiyinin də onlardan xali olmayacağı qənaətinə gəlir.

[30] Üsuli-kafinin şərhi, "İnnəl ərdə lə təxlu min hüccət", səh/479-481

## *Məhdəviyyət inancı*

Molla Sədranın nübuvvət, vilayət və imamət barədə baxışlarına, xüsusilə də onun hər bir zamanda imamın varlığının zəruriliyi mövzusunda istifadə etdiyi arqumentlərə ətraflı şəkildə işarə etdik. İndi isə qeyd olunanları nəzərə alaraq onun məhdəviyyət və İmam Mehdi (ə.f) barədə görüşlərinə işarə edək.

## *On ikinci imam barədə*

Molla Sədra "Hədid" surəsinin 27-ci ayəsinin təfsirində bu mövzuya işarə edərək qeyd edir ki, ilahi ənənələr Adəm (ə), Nuh (ə) və İbrahim (ə) peyğəmbərdən başlayaraq Muhəmmədə (s) qədər davam etmişdir. Peyğəmbərdən (s) sonra isə bu ənənələr batini nübuvvət olan vilayət vasitəsilə Qiyamət gününə qədər davam edəcək. O, qeyd edir ki, məhz elə buna görə də yer üzü bu ənənələrin daşıyıcısı olan imamsız qalmayacaq.

Molla Sədraya görə Allahın vəlisi ilahi elmlərə malik olub din və dünya işlərində mütləq rəyasət sahibdir. İstər camaat bu imama itaət edə, istərsə də etməyə, istər zahir və aşkar ola, istərsə də olmaya. Hər bir halda və hər bir zamanda ilahi sünnənin daşıyıcısı olan və Allah tərəfindən seçilmiş höccətin (bələdçinin) varlığı labüddür. Nübuvvət Muhəmmədlə (s) tamamlanıb sona yetdiyi kimi, vilayət zənciri də Peyğəmbərin (s) sonuncu övladı Həzrət Mehdi (ə.f) ilə tamamlanacaq. O, gəlişi ilə zülm və sitəmlə dolmuş yer üzünü ədalətlə dolduracaq.[31]

Molla Sədra "Üsuli-Kafi" kitabına yazdığı şərhdə "Əql və cəhl" fəslindəki 21-ci hədisi şərh edərkən on ikinci imam barədə bir məqama işarə edir. İmam Muhəmməd Baqirdən (ə) nəql olunan bu hədisi **"Bizim Qaimimiz (ə.f) qiyam etdiyində Allah-taala rəhmət əlini bəndələrinin başına çəkər. Onların əqllərini aktivləşdirər və nəticədə kamilləşərlər"**[32] şərh edərkən, hədisdə qeyd olunan "Qaimin" sağ və gözlərdən uzaqda olan İmam Mehdi (ə.f) olduğunu deyir. Onun fiziologiyası elədir ki,

---

[31] Təfsirul Quranil-Kərim, c/6, səh/298.

[32] Üsuli-kafi, c/1, səh29

nə xəstələnər, nə zəifləyər, nə də ki qocalar. Lakin belə təsəvvür olunmasın ki, onun ruhu bədənindən ayrıdır. O da (hamı kimi) yeyir, içir, yol gedir, əyləşir, qalxır, yazı yazır və s. Molla Sədra Həzrət Mehdinin (ə.f) yaşayışının xüsusiyyətini Həzrət İsanın (ə) yaşayış xüsusiyyətinə bənzədir. Sədra qeyd edir ki, bəziləri elmlərindəki qüsur, imanın zəifliyi və bu qeybin xüsusiyyətlərindən tam mənada agah olmamaları nəticəsində onun varlığını inkar edir və ya tərəddüdə düşürlər. Molla Sədra qeyd edir ki, səhih və mötəbər qaynaqlara istinadən nəql olunan çoxsaylı və müxtəlif hədislərə əsasən isə dünyanın sonuna bir gün qalmış olsa da, onun zühur edəcəyi qaçılmazdır.[33]

Molla Sədraya görə İmam Mehdinin (ə.f) batinin gözü qarşısında hicab olmadığından hər bir şeyin həqiqətini olduğu kimi görə və hər bir işə şahid ola bilir. Din alimləri arasındakı ixtilafları aradan qaldıraraq müxtəlif və çoxsaylı hökmləri vahid bir hökmlə dəyişir. Buna görə də onun zamanında cəddi Peyğəmbərin (s) zamanında olduğu kimi, yalnız bir məzhəb olacaq.[34] Yəni vəhyə, Peyğəmbər (s) və onun Əhli-beytinin (ə) ənənəsinə və məntiqə tabe olan vahid İslam mövcud olacaqdır.

---

[33] Üsuli-kafinin şərhi, "Əql və cəhl" kitabı, səh/558-559

[34] Məfatihül-ğeyb, səh/487

## *İmamın qeybə çəkilməsi barədə olan irada cavab*

Bəzilərin İmamın (ə.f) qeybə çəkilməsinə irad bildirərək deyir ki, şiələrin rəyinə əsasən, imamın varlığı Allahın lütfüdür. Allah üçün isə lütfün vacib olması imamın varlığının zərurətini yaradır. Lakin qeyd etmək lazımdır ki, imamın ancaq bir varlıq kimi varlığı lütf deyil. O imamın varlığı lütfdür ki, ondan istifadə olunsun, şəriət hökmlərini izah edərək ilahi hüdudları qorusun və hökmləri icra etsin. Başqa sözlə desək, imamın varlığı o zaman lütf olur ki, ümmətin işinə dəxalət edib onların idarəçiliyini öz öhdəsinə götürsün. Şiələr bu axırıncı qeyd edilən məsələni vacib hesab etmirlər.

Göründüyü kimi, bu irad dolayısıyla İmam Mehdinin (ə.f) imamətinə yönəlib. Yəni o qeybdə olub ümmətin işinə dəxalət edib onların idarəçiliyini öz öhdəsinə götürmədiyi halda belə, şiələr onun varlığını yenə də lütf hesab edir. İradı bir az da sadələşdirək. Yəni əgər qəbul etsək ki, imam yalnız insanlarla qaynayıb-qarışdığı və istifadə olunduğu zaman imamdır, belə olan halda İmam Mehdinin (ə.f) imaməti məqbul deyil.

Şiə mütəkəllimləri bu irada cavab olaraq qeyd edirlər ki, istər istifadə (müraciət) olunsun, istərsə də olunmasın, imamın fiziki varlığı belə lütfdür. İmamın istifadəsiz qalmasına (yəni İmama müraciət edilməməsinin) mane yaradan səbəblərsə, camaatın özündədir. Ona itaət, kömək etməyərək onların canına qıyan insanların varlığı cəmiyyəti imamlardan istifadə etmək kimi ilahi lütfdən məhrum etdi.

Molla Sədra mütəkəllimlərin nəzərini qeyd etməzdən öncə əlavə edir ki, filosof və ariflərin Quran ayələri və əqli qanunlara istinad edərək gəldikləri nəticə budur ki, yer üzərində bir nəfər höccətin (bələdçinin) varlığı zəruridir. Adəmdən (ə) tutmuş sonuncu Peyğəmbərə (s) qədər ilahi qanunlar və ənənələrin tanıtdırılması nəbi, rəsul, imam və canişin olan bu höcətlər vasitəsilə icra edilmişdir. Nəbilərin sonuncusu Muhəmməddən (s) sonra bir nəfər canişinin olması labüddür. Nübuvvətin tamamlanması ilə nübuvvət batini olan imamət başlayır. Camaat imamın rəhbərliyini qəbul etsə də, etməsə də, İmam ilahi elmlərə vaqif, din və dünya işlərində mütləq idarəçiliyə sahib bir

şəxsdir.[35] Əvvəldə də Molla Sədranın "Hədid" surəsinə verdiyi təfsirdə bu irad və etiraza işarə etməyərək bu fikri qeyd edir və Həzrət Mehdini (ə.f) ilahi ənənənin daşıyıcılarından biri kimi tanıtdırır.

Bu cavabdan aldığımız nəticə budur ki, imamın sözünün ümmət arasında keçərli olması və camaatın onun dediklərindən və göstərişlərindən istifadə etməsi imamətin şərtlərindən deyil. İmamın əmrinə tabe olmayanlar da olsa belə, imam yenə də imamdır. Deməli, İmam Mehdinin (ə.f) ümmətin dünya və axirət işlərindəki təsiri gözlə görüləcək tərzdə olmasa da belə, o həzrət bu zamanın imamıdır.

Molla Sədra "Hədid" surəsinin 27-ci ayəsinin təfsirində Həzrət Mehdi (ə.f) varlığı və onun imamətinin qəbul olunmaması barədə edilən iki irada işarə edib onları cavablandırır. Birinci irad İmamın (ə.f) uzunömürlülüyü barədədir. Molla Sədra Adəm (ə) və Nuh (ə) kimi uzunömürlü peyğəmbərləri misal çəkərək Həzrət Mehdinin də (ə.f) uzunömürlü olmasının mümkünülüyünü vurğulayır. İkinci irad isə yuxarıda qeyd etdiyimiz iraddır ki, adətən bizim kəlam kitablarında qeyd olunaraq cavabı verilmişdir. Yəni insanların dini və dünyəvi məsələlərində müraciət edərək cavab ala bilmədikləri belə bir imamın varlığına inam faydasızdır. Molla Sədra bu irada cavab olaraq qeyd edir ki, imamətin özünü tanımaq, imamın varlığını və Allahın höccəti olmasını təsdiqləməyin özündə belə mənfəət vardır. Belə olan halda isə imamın mütləq şəkildə gözlə görülməsi lazımlı məsələ deyil. O, öz cavabını gücləndirmək üçün qeyd edir ki, Muhəmməd (s) həyatda olduğu zamanda Üveys Qərəni Peyğəmbəri (s) görmədən, onunla danışmadan onun varlığına iman gətirib Allahın höccəti olduğunu təsdiqlədi. Elə bu imanın və inamın özü onun üçün böyük bir fayda verdi və o seçilmişlərdən oldu.

Sonra Molla Sədra Həzrət Mehdinin (ə.f) varlığının faydası barədə Cabir ibn Abdullah Ənsarinin Peyğəmbərə (s) istinadən nəql etdiyi hədisə işarə edir: "Peyğəmbər (s) buyurdu: "O, həmin şəxsdir ki, Allah-taala onun vasitəsilə yeri Qərb ilə Şərqi birləşdirərək genişləndirəcək. Allahın qəlblərini iman vasitəsilə imtahan etdiyi və onun qeyb dövründə də sabitqədəm qalmağı bacaran kəslərdən başqa o bütün tərəfdarlarından gizlidir. Cabir deyir: **"İmamın qeybdə olmasının tərəfdarlara (şiələrə)**

---

[35] Üsuli kafinin şərhi "Əql və Cəhl" kitabı, səh/475-476

**faydası varmı?" Peyğəmbər (s) cavab verdi: "Əlbəttə. And olsun məni haqq ilə göndərən Allaha! Şiələr onun nurun ilə aydınlanırlar. Camaat bulud araxasında gizlənən günəşdən faydalandıqları kimi, şiələr qeybdə olduğu zaman onun vilayətindən faydalanırlar."** [36]

Molla Sədra Peyğəmbərin (s) hədisinə əsaslanaraq bu əqidədədir ki, İmam Zaman (ə.f) qeybdə olsa da, onun varlığı möminlər və tərəfdarlar üçün faydalıdır. Qeyb dövründə onun vilayət nurundan faydalanırlar. Molla Sədra **"Yer üzərində qalan iki nəfərdən biri höccətdir (imamdır)"** fəslində Yunus İbn Yaqubun İmam Sadiqdən (ə) nəql etdiyi başqa bir hədisin[37] şərhində də bu məsələni qeyd edərək qeybdə olan İmamın (ə.f) varlığının faydasından söz açır. Sədra deyir ki, hər bir zamanda imamın varlığının camaatın hidayət olunma vasitəsidir. Əgər camaat onun varlığından qafil olub, onun nurundan istifadə edə bilmirsə, təqsir imamda yox, onların özündədir. Bunun da səbəbi camaat şəhvani istəklərinə qulluq etdikləri üçün imam ilə öz aralarında çəkdikləri hicabdır.[38]

---

[36] Təfsirul Quranil-Kərim, c/6, səh/301-302

[37] Üsuli-kafi, c/1, səh/254

[38] Üsuli-kafinin şərhi, "Yer üzərində qalan iki nəfərdən biri höccətdir

## *Nəticə*

Molla Sədranın məhdəviyyət inancı və hər bir zamanda imamın varlığının isbatı üçün gətirdiyi arqumentləri araşdırdıqda görürük ki, onun imamın varlığının isbatı üçün qeyd etdiyi ikinci arqument elə Şeyx Müfid[39], Seyid Mürtəza[40], Xacə Nəsrəddin Tusi[41] kimi mütəkllimlərin istifadə etdiyi arqumentdir. Molla Sədra kimi Farabi[42], İbn Sina[43], Şeyx İşraq da[44] nübuvvət və imamət arasında köklü fərqin olmadığını demişlər. Ona görə də hər bir zamanda bir nəbinin və ya imamın varlığının zəruri olmasının isbatı üçün vahid arqumentdən istifadə etmişlər. Bunlara əlavə olaraq Şeyx İşraqın "Hikmətül-işraq"[45] kitabının əvvəlində imamətin davamlı olmasının zərurəti və ilahi ənənənin daşıyıcısı kimi hər bir zamanda bir vəlinin olması mövzusundakı görüşləri Molla Sədranın görüşləri ilə tamamilə üst-üstə düşür. Mir Damad da öz kitabında[46] Peyğəmbərin (s) əzəməti və şəni barədə müəyyən məsələlərə toxunur ki, qismən Molla Sədranın bu mövzuda istifadə etdiyi üçüncü arqumentə bənzərdir. Mir Damadın 12 imamın varlığının lüzumu barədə istifadə etdiyi nəqli arqument[47] isə eynilə Molla Sədranın istifadə etdiyi onuncu arqument ilə tamamilə eynidir.

---

[39] Əl-irşad, səh/39-40, 347

[40] Əz-zəxirə fi elmil-kəlam, səh/410, Əl-muqni fil-ğeybə, səh/35-36, Risalətun fi ğeybətil-hüccət, c/2, səh/294

[41] Təcridul-etiqad, səh/204, 221, Risalətul-imamə, təlxis əl-mühəssəl, səh/427-428, Əl-fusul, sə36-39, Qəvaidül-əqaid, təlxis əl-mühəssəl, səh/460

[42] Araun əhlul mədinətul-fazilə, səh/ 112-114

[43] Əl-işarat vət-tənbihat, c/3, səh/271, Əş-şəfa (İlahiyyat), səh/441-443, Ən-nəcat, səh/338-340

[44] Pərtonamə (Şeyx İşraqın əsərlərinin məcmüəsi), c/3, səh/57, Ət-Təlvihat, c/1, səh/95-96, Fi etiqadil-hükəma, c/2, səh/270-271, c/4, səh/238

[45] Hikmətül-işraq, c/2, səh/11

[46] Ər-rəvaşihus-səmaviyyə fi şərhil-əhdisil-imamiyyə, səh/34, Əl-qəbsat, səh/396

[47] Əş-şəfa (İlahiyyat), səh/19-21